# Milli Kitabxanada "Şərqşünas alim Aida İmanquliyeva" adlı kitab sərgisi keçirilir

**Görkəmli şərqşünas, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın doğum günü münasibətilə Milli Kitabxanada "Şərqşünas alim Aida İmanquli-**



**yeva" adlı virtual sərgi və ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə Aida İmanquliyevanın əsərləri, dövri mətbuat səhifələrində dərc olunan məqalələri, onun haqqında əsərlər və fotolar təqdim olunur.

Ənənəvi sərgidə alimin əsərləri, fundamental elmi tədqiqatları, dəyərli, sanballı monoqrafiyaları, tərcümələri, həyatı və genişmiqyaslı elmi yaradıcılığı, şərqşünaslıq elminin inkişafındakı xidmətlərindən bəhs edən Azərbaycan və xarici dillərdə ədəbiyyatlar nümayiş olunur.

Ənənəvi sərgi bir həftə davam edəcək.

Azərbaycan.- 2024.- 11 oktyabr (№223).- S.9.